# Lənkəranda Sevindik Nəsiboğlunun kitabının təqdimatı keçirilib





Lənkəranda gənc şair-publisist Sevindik Nəsiboğlunun sayca 5-ci kitabı olan "Möhtəşəm Zəfərin Nişanəsi" adlı kitabının təqdimatı keçirilib.

Lənkəran MKS-də təşkil olunmuş kitab təqdimatında əvvəl Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Nuranə Nəsirova şəhidlərimizin keçdiyi şanlı döyüş yolundan bəhs edib, sonra "Möhtəşəm Zəfərin Nişanəsi" kitabının müəllifi Sevindik Nəsiboğlu haqqında məlumat verib. Müəllif adından gənc müğənni Allahverən Pərvizoğlu qonaqları və şəhid ailələrini salamlayaraq kitab haqqında məlumat verib.

Təqdimatda şəhid ailə üzvləri, Azərbaycan Vətən Müharibəsi Veteranlar İctimai Birliyinin Lənkəran Rayon Şöbəsinin sədr müavini Saleh Dostiyev iştirak ediblər. Gənc müğənni Allahverən Pərvizoğlu müəllif adından Şəhid ailələrinə "Möhtəşəm Zəfərin Nişanəsi" kitabını təqdim edib.

Qeyd edək ki, "Möhtəşəm Zəfərin Nişanəsi" kitabında müəllifin 400-dən çox şəhidimiz haqqında hazırladığı vikipediya səhifələri, şeir və məqalələri yer almışdır. Həmçinin, kitabda on Lənkəran şəhidi haqqında bəhs olunmuşdur.

*Nuranə* Nəsirova
***Lənkəran MKS-in direktoru***

Kredo .- 2022.- 7 may.- S.12.